# Türk tarixinin unudulmaz dastanı



*Bu gün türk millətinin varlıq savaşı verdiyi, canı bahasına da olsa torpaqlarını müdafiə etdiyi, dünyaya türkün birliyinin və məğlubedilməzliyinin simvolu olan Çanaqqala zəfərinin 110-cu ildönümüdür.*

Çanaqqala savaşı türk xalqının qələbə, hünər və rəşadətlər tarixinin ən parlaq səhifəsidir. Bu zəfər türk şəhidlərinin və qazilərinin dünya tarixinə qanları ilə yazdıqları qəhrəmanlıq salnaməsidir.

# Çanaqqala Zəfəri





Çanaqqala tarixin axarını dəyişən, türk millətini birləşdirən, onları qəhrəman edən, yaddaşlara əbədi həkk olan bir dastandır. Bu zəfər həmçinin türk əsgərinin və xalqının milli birlik və həmrəyliyinin, türk millətinin azadlıq və istiqlal sevgisinin bir göstəricisidir. Çanaqqala dünya tarixində və türk millətinin yaddaşında əbədi, əfsanə və dastana çevrilmiş, dünyanı məğlub edərək yenilməz zənn edənlərin darmadağın edildiyi böyük bir zəfərdir. Çanaqqalada iman və qətiyyət qarşısında maddi güc və texnika diz çökdü, türkün qüdrəti qalib gəldi. Haqq və ədalət qələbə çaldı. Tarix Çanaqqalaya təkəbbürlə gələnlərin necə məyus döndüyünə, səlibçi zehniyyətinin ümidli işıqlarının necə söndüyünə şahid oldu. Çanaqqala 300 min şəhidin kəfənsiz uyuduğu, türk millətinin şöhrət qazandığı bir dövrün bitdiyi yerdir.

18 mart 1915-ci il nəinki Türkiyənin, ümumilikdə türk və İslam dünyasının tarixinə qanla yazılmış şərəfli bir tarixdir. Çünki 110 il öncə, Birinci Dünya müharibəsi zamanı dahi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qəhrəman türk ordusunun Çanaqqala cəbhəsində apardığı mübarizə və əldə edilən zəfər, eyni zamanda bütün dünyada proseslərin gedişatına təsir etdi.

Çətin şərtlərə və böyük itkilərə baxmayaraq, qələbə qazanılan 18 mart Çanaqqala zəfərinin mənası və əhəmiyyəti keçmişdən günümüzə unudulmaz izlər qoymuşdur. Bu cəbhədə əldə edilən zəfər dünya dövlətlərinin güc balansını dəyişərək böyük türk millətinin həlledici və istiqamətləndirici gücünü bir daha nümayiş etdirdi.

Çanaqqala döyüşünün Anadolu xalqına verdiyi əzm, ümid və qətiyyət Qurtuluş savaşının məşəlini alovlandırdı. Çanaqqala türk millətinin istiqlal və hürriyyət məsələsində nə qədər əzmkar və qəhrəman olduğunu türk dünyasına hər zaman xatırladacaq. Tarix də şahid oldu ki, türk əsgəri döyüş meydanında belə insanpərvərliyini itirməyib, hətta düşməninə belə mərhəmət göstərib. Hər səngərdə ayrı bir dastan yazan türk əsgərləri düşmənə qarşı müqəddəs mübarizəsini qələbə ilə yekunlaşdırmış, dünya tarixinin şanlı səhifələrinə bir daha silinməyən "Çanaqqala keçilməzdir!" şüarını yazmışdır.

Dəniz və quru qoşunlarını əhatə edən və bütün çətinliklərə baxmayaraq, türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala döyüşü Atatürk kimi bir dahini yetişdirmişdir. Hər biri ayrı-ayrılıqda qəhrəmanlıq nümunəsi sayılan döyüşlərdə itirilən insanların sayına və sosial mənşəyinə nəzər salanda mübarizənin ümumxalq xarakteri daşıdığına heç bir şübhə qalmır. Bu döyüşlərdə əhalinin bütün təbəqələri iştirak edib. Çoxlu sayda ziyalı həm vuruşub, həm də əsl vətənpərvərlik təbliğatı aparıblar. Bu da təbii ki, texniki imkanlar baxımından avropalılardan xeyli dərəcədə geridə olan türk ordusunun mənəvi qüdrətini və döyüş ruhunu artırıb. Zəif silahlarla silahlanmış, lakin son dərəcə döyüşkən və əzmkar olan türklərin o dövrün ən son hərbi nailiyyətlərindən istifadə edən avropalıları geri oturtması onların mərdlik və cəsurluğunun parlaq nümunəsi kimi qiymətləndirilməlidir.

Türkün mübarizliyinin, əyilməzliyinin və sarsılmazlığının rəmzinə çevrilən Çanaqqala döyüşü türk dünyasına Mustafa Kamal Atatürk kimi bir dahi bəxş etmiş və gələcək Qurtuluş savaşında onun liderliyinə möhkəm zəmin yaratmışdı.

"Yollar var, maneələrlə, əzablarla doludur. Mustafa Kamal Atatürk, Geliboludakı Kemalyeridən başlayan, Arıburnu, Anafartalar, Conkbayırı və daha sonra İstiqlal mübarizəsinə uzanan səfərdəki uğursuzluqlara baxmayaraq, uğur hekayəsini yazıb. Mustafa Kamalın bu taleyüklü səfərdə ilk addımını atdığı yer Çanaqqala, gözətçi isə Kemalyeridir". Bu fikri **Milli Təhlükəsizlik və Xarici Siyasət Araşdırmalar Mərkəzinin elmi müşaviri Naim Baburoğlu** vurğulayıb. O deyib:



"Birinci Dünya müharibəsi başlayanda Mustafa Kamal Atatürk Sofiyada idi. 1915-ci il fevral ayının 25-də podpolkovnik Mustafa Kamal kiçik bir gəmi ilə təchizat daşıyan 3-cü korpusun diviziyasının yerləşdiyi Tekirdağa, oradan da Eceabata gəlib.

1918-ci il aprelin 25-də səhər saatlarında düşmən qüvvələri Mustafa Kamalın planlaşdırdığı nöqtədən hücuma keçib. 19-cu diviziya komandiri Mustafa Kamal Kocaçimen, Conkbayırda döyüşüb. Sursatları qurtaran əsgərlərə: süngülərinizi taxın əmrini verib və deyib: "Mən sizə hücum etməyi əmr etmirəm, ölüm əmri verirəm. Biz öldükdən sonra bizi başqa qüvvələr və başqa komandirlər əvəz edə bilər. Orada tarixin ən böyük səngər döyüşü başlayıb. Xəndəklər arasındakı məsafə təxminən səkkiz-on metr olub. Türkiyə səngərlərindən heç bir əsgər çıxmayıb. Hamı düşmənin üzərinə tələsib. Bu, sıradan bir hücum olmayıb. Bu arada Mustafa Kamal Anafartalar Qrup Komandanlığına təyin edilib. Anafartalar döyüşü zamanı düşmənin atdığı mərmi Mustafa Kamalın sinəsinə dəyib. Amma cibindəki saata dəydiyi üçün sağ qalıb".

N.Baburoğlu deyib ki, Mustafa Kamalın doğulduğu yerin Kemalyeri olması çox mənalıdır. Kemalyeri, Arıburnu cəbhəsində ilk döyüşlərin keçirdiyi müşahidə nöqtəsinə verilən addır. Mustafa Kamalın tarix səhnəsinə çıxması da oradan və Arıburnu döyüşləri ilə başlayıb. Bu səyahətin başlanğıcında Mustafa Kamal 34 yaşında gənc diviziya komandiri olub. Kemalyeri artıq Mustafa Kamalın gözətçisi deyil, türk millətinin qurtuluş məşəlinin alovlandığı od topudur. Bu alov topu yavaş-yavaş bütün Anadoluya yayılıb.

Mustafa Kamal 9 ay 13 gün Gelibolu döyüş meydanında qalıb. Düşmənin hücumlarını dəf edib, irəliləməsinin qarşısını alıb və strateji nəticələr əldə edib.

"Düşmənin əsas hədəfi İstanbul olub. Podpolkovnik, sonra isə polkovnik rütbəsi alan Mustafa Kamal 4 dəfə Osmanlının paytaxtı İstanbulu və işğalçı dövlətlərin hədəfində olan Osmanlı imperiyasını azad edib. İlk xilası, döyüşün ilk günü 25 aprel 1915-ci ildə 57-ci alayla Arıburnuya enən düşmənə etdiyi hücum olub. İkinci xilasetməsi 9 avqust 1915-ci ildə Arıburnu bölgəsindən Conkbayırıya hücum edən ANZAK korpusuna Suvlaya enən ingilis korpusu ilə hücum olub. Birinci Anafartalar Zəfəri ilə İstanbulu ikinci dəfə xilas edib. 1915-ci il avqustun 10-da məşhur Conkbayırı döyüşü ilə İstanbulu, yəni Osmanlı imperiyasını üçüncü dəfə xilas edib. Mustafa Kamal bu döyüşdə Troyanın qisasını alıb. Dördüncü xilası isə 1915-ci il avqustun 21-də İkinci Anafartalar döyüşü zamanı düşmənə etdiyi hücum olub. Bu hücumla düşmən hədəflərinə çata bilmir və İstanbul xəyalı sona çatır. Təbii ki, Mustafa Kamalın Çanaqqala müharibəsində qazandığı tək nailiyyətlər bunlar deyildi. Burada yalnız strateji nəticələrlə qazanılan qələbələri qeyd etdim", - deyə N.Baburoğlu vurğulayıb.

O bildirib ki, Birinci Anafartalar və Conkbayırı zəfərindən sonra ingilis generalı Hamilton 17 avqust 1915-ci ildə Londona göndərdiyi teleqramda yazırdı: "Türklərin Conkbayırıda çox yaxşı bir komandiri var. Onlar daim basqın üslubunu sınayırlar. Biz çox cəsur bir türk ordusuna qarşı döyüşürük. Bu komandir kimdi? Anafartalar Qrupu Komandiri Polkovnik Mustafa Kamal".

Müharibə tarixini yazan və Hamiltonun Çanaqqalada əməliyyat zabiti kimi xidmət edən general Oqlander Mustafa Kamal haqqında yazıb: "Mustafa Kamalın 25 aprel 1915-ci ildəki hücumu Çanaqqala müharibəsinin sonunu təyin etdi. Tarixdə nadir hallarda rast gəlinən bir hadisədir ki, bir diviziya komandiri belə bir müharibədə zəfər əldə etdi".

"İngiltərə, Fransa, Rusiyaya lazımi yardımın çatdırılmasını təmin etmək, Çanaqqala boğazını ələ keçirərək İstanbulu işğal etmək və müharibədə qalib gəlmək niyyətində idilər. Çanaqqala döyüşü dəniz və quruda olmaqla iki hissədə aparılmışdır. Əvvəlcə dənizdən Çanaqqalanı keçmək istəyən dövlətlərin donanması 18 mart 1915-ci ildə Çanaqqala boğazının sularında yox olmuşdur. Bu hadisə müharibənin 1918-ci ilə qədər davam etməsinə səbəb olmuşdur. Dənizdən Çanaqqalanı keçə bilməyəcəyini anlayan ingilis və fransızlar Çanaqqala yarımadasına 3 dəfə əməliyyat həyata keçirsələr də, yarımadanı tuta bilməyiblər. Nəticə olaraq Çanaqqala dəniz və quru müharibələri 1915-1916-cı illər arasında Osmanlı imperiyasının qalibiyyəti ilə nəticələnmişdir". Bu fikri isə açıqlamasında **sosial elmlər üzrə mütəxəssis, tarixi araşdırmacı Metin Yıldırm** vurğulayıb.



O bildirib ki, əgər Çanaqqala müharibələrində Osmanlı məğlub olsaydı, digər cəbhələrdə müharibəyə davam etmək mümkün olmayacaqdı. Eyni zamanda da müharibə bu qədər uzanmayacaqdı. Dolayısı ilə Osmanlı imperiyasının Çanaqqaladakı qalibiyyəti həm Osmanlıya, həm də dünyadakı geopolitik tarazlığa təsir göstərmişdir. Əgər Çanaqqala 1915-ci ildə ələ keçirilsəydi, İstanbul işğal olunacaq və Osmanlı imperiyası əvvəl süqut edəcəkdi. 19 may 1919-cu ildə başlayan və 23 may 1923-cü ildə bitən "Qurtuluş müharibəsi" olmayacaq, 1453-cü ildə İstanbulu fəth edərək yeni bir dövr başladan türklər Anadolu səhnəsindən tamamilə silinmiş olacaqdılar.

M.Yıldırım qeyd edib ki, Çanaqqala zəfərinin əldə edilməsində azərbaycanlıların da böyük rolu olub. Bu müharibədə də eynilə Balkan müharibəsində olduğu kimi, 3000-ə yaxın azərbaycanlı iştirak etmişdir: "Çanaqqala müharibələrinə qatılan azərbaycanlı gənclərin əziz xatirəsini yaşatmaq məqsədilə Çanaqqalada Azərbaycan şəhidliyi təsis edilmiş və onların xatirələri əbədiləşdirilmişdir. Balkan və Çanaqqala müharibələrində Azərbaycan xalqının göstərdiyi həssaslıq Şuşa Bəyannaməsi ilə tarixinin ən üst nöqtəsinə çatan qardaşlığın simvolu olmuşdur".

M.Yıldırım son olaraq vurğulayıb ki, hər il 18 martda keçirilən Çanaqqala Zəfəri və Şəhidləri Anma Günü bizə bu zəfərin mənasını və əhəmiyyətini xatırladır. Bu əlamətdar gün milli birliyimizi və həmrəyliyimizi möhkəmləndirərək şəhidlərimizi ehtiram və rəhmətlə yad etməyə imkan verir. Eyni zamanda keçmişdən aldığımız dərslər sayəsində gələcəyə daha çox ümidlə baxırıq.

Onu da qeyd edək ki, 2023-cü il mart ayının 18-də Türkiyənin istiqlal müharibəsi tarixində mühüm rol oynayan Çanaqqala zəfərinin 108-ci ildönümünə həsr olunmuş anım mərasimi çərçivəsində Çanaqqala Şəhidliyi ərazisində Azərbaycan şəhidlərinin xatirəsinə ucaldılmış abidənin açılışı olub. Xatırladaq ki, 24 aprel 2015-ci ildə Çanaqqala döyüşlərinin 100-cü ildönümü münasibətilə Çanaqqala Şəhidliyi Kompleksində keçirilmiş xatirə tədbirində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev komplekslə tanışlıq zamanı Çanaqqala döyüşlərində şəhid olmuş azərbaycanlı döyüşçülərin xatirəsinin Çanaqqala Şəhidliyi Kompleksində əbədiləşdirilməsinə dair Azərbaycanın müvafiq dövlət qurumlarına göstəriş verib.

2022-ci ilin dekabr ayında Çanaqqala Savaşları Gelibolu Tarixi Sahəsində ayrılmış ərazidə təməli qoyulan Azərbaycan Şəhidləri Abidəsi Çanaqqala Şəhidlər Abidəsinə 500 metr məsafədə yerləşir və Azərbaycan şəhidləri üçün ayrılan ərazi ümumilikdə 1960 kvadratmetr ərazini əhatə edir.

Abidə layihəsinin eskizi azərbaycanlı heykəltaraşlar tərəfindən hazırlanıb. Heykəltaraş Tural Rzaquliyevin layihəsinə əsasən Bakıda hazırlanmış və milli ornamentlərin əks olunduğu bürünc barelyefdə çiyin-çiyinə vuruşan Azərbaycan və Türkiyə əsgərləri təsvir edilir. Barelyef 3 metr yüksəkliyindəki postament üzərində yerləşir və abidə onu tamamlayan sütunla birlikdə ümumi 13 metr hündürlükdədi.

"18 mart 1915-ci ildə dənizdə başlayan Çanaqqala döyüşlərindən təxminən bir ay sonra dəniz müharibələri sona çatdı. Fransızlar və ingilislər hazırlığa başlayıblar. Bu müharibədən əvvəl hər iki tərəfdə ciddi psixoloji əməliyyatlar aparılıb, xüsusən də Osmanlıdan Yunanıstana köçmüş və türk dilini yaxşı bilən bir çox yunan cəbhə haqqında məlumat almaq üçün casus kimi göndərilib. Osmanlılar da eyni şəkildə psixoloji əməliyyatlar aparıblar. Xüsusilə quru müharibələrində bunu ediblər". Bu fikri isə açıqlamasında **professor Nevzat Tarhan** vurğulayıb. O



deyib: "18 martda Müttəfiq Qüvvələrin donanması Nusret minaatanının döşəndiyi minalar səbəbindən Çanaqqaladan keçə bilməyəndə quru əməliyyatına əl atmaq məcburiyyətində qalıblar. Bu vəziyyət Çanaqqala müharibəsində tarixi bir dönüş nöqtəsi olub. Müttəfiq dövlətlər orada uğursuzluğa düçar olaraq geri dönüblər. O zamanlar Mustafa Kamal Atatürk quru döyüşləri zamanı az tanınan qərargah polkovniki ikən, Anafartalarda göstərdiyi böyük uğur onu Osmanlı ictimaiyyətində inanılmaz dərəcədə məşhur edib.

Professor qeyd edib ki, Gelibolu yarımadasındakı şəhid məzarlığına gedənlər Anadolunun hər yerindən döyüşə gedən əsgərlərin məzar daşlarını görürlər. Azərbaycandan, Suriyanın İdlib şəhərindən olan şəhidlər var. Bu əsgərlər güclü silahlanmış düşmənə necə müqavimət göstərə bilərdilər? Mustafa Kamal bunu çox yaxşı bildiyi üçün "Mən sizə hücum əmri vermirəm, sizə ölməyi əmr edirəm".

N.Tarhan deyib ki, qarşı tərəfin qəddar olduğunu görəndə ölümə yox deyə bilmək bizim genetik kodumuzda var. Bu hiss Çanaqqalada müqavimət gücünü artırmış, qarşı tərəfin qəddarlığı bu insanlarda vətəni qoruya bilmək hissi oyatmışdı. Vətənə müqəddəs bir əmanət kimi bağlılıq var. Həmin sədaqət hissi Çanaqqala ruhunu yaradıb.




"Çanaqqaladakı zəfər yeni Türkiyənin doğulmasının ön sözüdür", - deyən professor Çanaqqala zəfərinin xüsusilə müstəmləkəçilik və antiimperializmlə mübarizədə böyük bir uğur olduğunu və bunun müstəmləkəçiliklə mübarizə aparan bütün xalqlar üçün bir simvol olduğunu bildirib. Çanaqqalanın ruhunun simvolik dəyəri var: bütün dünyada zalımlara dur demək, müstəmləkəçiliyə qarşı mübarizə aparmaq.

Çanaqqala zəfəri türk millətinin tarixində ən mühüm parlaq nailiyyətlərdən biridir. Bu qələbə onu göstərir ki, vətən sevgisi, fədakarlıq, mərdlik kimi ümumbəşəri dəyərlər xalqımızın xarakterinin tərkib hissəsidir. Gələcək nəsillər üçün ilham mənbəyi olan Çanaqqala zəfəri milli birlik və həmrəylik ilə nələrə nail ola biləcəyimizin ən güclü sübutudur. Bu mənalı irsi qorumaq və gələcək nəsillərə ötürmək bizim ümumi borcumuzdur".

Cümhurbaşqanlığı tərəfindən təşkil edilən mərasim və şənlikləri ölkədə ortaq xətt üzərində bir araya gətirmək üçün 2018-ci ildən etibarən hər il bir mövzu müəyyən edilir.

2018-ci ilin mövzusunun "Biri var", 2019-cu il üçün "Çanaqqala Dirilişdən Qurtuluşa Bir Duruşdur", 2020-ci il üçün "Hilalın Kölgəsində Gizlənən Abidələr", 2021-ci il üçün "İstiqlaldan Gələcəyə Çanaqqala", 2022-ci il üçün "Bir yanımız Çanaqqala", 2023-cü il üçün "Ruhumuzda Çanaqqala var", 2024-cü il üçün "Şöhrət, Şərəf, Tarix Bizimdir, Çanaqqalamızdır", bu il isə "Yüz on" olaraq təyin olunub. Bununla bağlı açıqlamanı Mədəniyyət və Turizm Nazirliyi paylaşıb.

Açıqlamada 18 mart tarixində Şəhidlər Memorialında keçiriləcək mərasimin 110 illik yubileyində "Yüz on" mövzusunun olacağı və bu mövzunun 110 il əvvəl qazanılan qələbənin tarixi mənasını vurğulayacağı bildirilib.

"Yüz on" mövzusu bu zəfəri gətirən o igid simaların illər keçməsinə baxmayaraq, hələ də ruhumuzda və şüurumuzda yaşadığını, türk millətinin bənzərsiz müqavimətinin və əzminin bu günə qədər gəlib çatdığını göstərir. "Yüz on" təkcə 110 il əvvəlki qəhrəmanlığı deyil, həm də bu zəfər əzmi ilə yaşayan hər birimizin ruhunu yaşadır.

Türk millətinin birlik və müqavimətinin əbədi ifadəsi olan Çanaqqala zəfərini qazandıran əsgərlərin xatirəsini, mənəvi irsini yaşatmaq məqsədilə keçiriləcək mərasimlərin məlumat, sənəd, dizayn və vizual birliyini, dövlət qurumları və təşkilatları, yerli özünüidarəetmə orqanları və vətəndaş cəmiyyəti təşkilatları arasında koordinasiyanı təmin etməsi məqsədilə bölgə rəhbərliyi tərəfindən www.com18.com internet saytı açılıb. Həftə ərzində keçiriləcək tədbirlər çərçivəsində "Zəfərlə üz-üzə" başlığı ilə hazırlanan bir dəqiqəlik ictimai anons müvafiq mediada nümayiş etdiriləcək.

Beləliklə, fevral ayından dekabra qədər davam edən Çanaqqala savaşlarında ingilislər 205 min, fransızlar 47 min itki veriblər. Şübhəsiz, güclü Qərb ölkələrinin hücumuna məruz qalan Osmanlı ordusunun itkisi daha çox, 253 min olub. Vətən torpağını canından çox sevən 253 min insan şəhid oldu, lakin torpağına düşmən ayağı belə toxundurmadı.

Çanaqqalada ən böyük məğlubiyyəti ingilislər yaşadılar. Çörçillin planları baş tutmadı. İngilislərin güclü donanması boğazda məhv oldu. Antanta dövlətlərinin boğazı keçərək ruslara kömək aparması xəyalları dənizdə boğuldu. Nəticədə iqtisadi və siyasi cəhətdən çətin günlər keçirən Rusiyada inqilab baş verdi və Rusiya müharibədən çəkildiyini açıqladı.

Anadolu düşməninin çox güclü, təchizatlı, amansız, vicdansız olduğunu yaxşı bilirdi. Lakin öz qəlbində və ruhunda daşıdığı iman gücü dünyadakı bütün güclərdən üstün idi. Beləliklə, vuran qoluna qüvvət verən iman "Çanaqqala keçilməz" deyib yeri, göyü titrətdi, düşmən əsgərlərinin Çanaqqalada məzarını qazdı.

İllər sonra Çanaqqala döyüşü bir dastana çevrildi. Bu dastandakı qəhrəmanlardan biri də yanındakı topçuların hamısı şəhid olaraq tək qalan Seyid çavuşdur. Düşmən gəmisi boğaza yaxınlaşırdı. Gəmi boğaza girsə Anadolunun taleyi həll olunacaq və düşmən İstanbulu işğal edəcəkdi. Seyid çavuş isə tək idi. Atmağa 276 kiloqramlıq bir top mərmisi qalmışdı. Adi vəziyyətdə bu mərmini bir nəfərin götürüb topun lüləsinə qoyması mümkün deyildi. Amma Seyid çavuş 276 kiloqramlıq mərmini bir anda götürərək topa qoyur və atəş açır. Bu atəşlə o, gəminin gövdəsini dağıdır və onu batırır. Beləliklə, Seyid çavuşun bu qəhrəmanlığı düşmənin geri çəkilərək qaçmasına səbəb olur. Bir sözlə, bir mərmi, bir nəfər topçu Çanaqqala döyüşünün taleyində çox mühüm və əhəmiyyətli rol oynayır.

Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərən bu şərəfli döyüş, Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi o tarixi gün, 18 mart - Çanaqqala Şəhidlərini Anma Günü olaraq elan edilmişdir. 259 gün davam edən və böyük insan itkisi ilə nəticələnən Çanaqqala döyüşü mənəvi gücün maddi və texniki üstünlüklər üzərində qalibiyyətin simvoludur. Çanaqqala zəfəri türk əsgərinin nəyin bahasına olur-olsun, öz şərəfini, ləyaqətini, əqidəsini qoruma gücündə olduğunu göstərdi. Türk əsgərinin şücaəti nəticəsində bu qələbədə Azərbaycanın da payı var və eyni zamanda Çanaqqala zəfəri o zaman Azərbaycanda gedən ictimai-siyasi proseslərə də çox mühüm təsir göstərdi. Belə ki, Çanaqqaladakı məğlubiyyət nəticəsində Antanta dövlətləri müttəfiqləri olan çar Rusiyasına yardım edə bilmədilər. Bu da öz növbəsində Rusiyada



hökm sürən sosial, siyasi və digər sahələrdəki ziddiyyətləri kəskinləşdirdi və nəticədə 1917-ci ilin Fevral inqilabı baş verdi. Fevral inqilabından sonra Azərbaycan milli hərəkatı özünün keyfiyyətcə ən yüksək mərhələsinə daxil oldu və bu da öz məntiqi yekunu kimi 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaranması ilə nəticələndi.

**Səhifəni hazırladı:**
**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**